**❐ Respublikanın kənd təsərrüfatı üzrə ixtisaslaşmış rayonlarında əkinçiliyin inkişafı digər sahələrlə yanaşı, həm də etibarlı su təchizatı ilə bağlıdır. Bu baxımdan xüsusən yay aylarında, suvarma suyuna daha çox ehtiyac duyulan rayonlardan biri də Ağdaşdır. Son illər Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi çağırışını və dövlət başçısının bununla bağlı həyata keçirdiyi tədbirləri ağdaşlılar ürəkdən bəyənmiş və dəstəkləmişlər. İndi rayonda kənd təsərrüfatı məhsulları istehsalının artırılması, əkin dövriyyəsinə yeni torpaq sahələrinin cəlb olunması, xüsusilə taxılçılıq, pambıqçılıq və bostançılığın inkişafı ilə bağlı yeni layihələrin icrası diqqətdə saxlanılır. Bu istiqamətdə görülən işlər sırasına, təbii ki, su təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi də daxildir.**

# Ağdaş: Suyun hər damlası məhsula çevrilir



Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş iclasında bu həllivacib məsələyə də toxunaraq demişdir: “İlin əvvəlində qarşıya vəzifə qoyulmuşdu ki, biz 100 min hektardan çox yeni torpaq sahələrinin suvarılmasını təşkil edək və bu istiqamətdə işlər gedir. Biz buna nail olacağıq. Biz yeni layihələr üzərində işləyirik. Elə etməliyik ki, suvarma işlərini maksimum dərəcədə yüksək səviyyədə aparaq. Çünki bu, məhsuldarlığa bilavasitə təsir göstərir. Subartezian quyularının qazılması davam etdirilir. 2013–2016-cı illərdə minə yaxın subartezian quyusu qazılmışdır. İyun ayında yeni sərəncam imzalamışam. Bu sərəncam əsasında 36 rayonun 136 yaşayış məntəqəsində 150 subartezian quyusu qazılacaq və deməli, 375 min insan bundan istifadə edəcək. Əvvəlki illərdə qazılmış quyular hesabına 1 milyon 300 min insan bu imkanlardan istifadə edib”.

**Bu qızmar yay günlərində Ağdaşda olarkən Suvarma Sistemləri İdarəsinin rəisi Rəsul Zamanov və Pirəzə Mexaniki Suvarma İdarəsinin rəisi İlham Əliyevlə həmsöhbət olduq.** Müsahiblərim bildirdilər ki, rayonda əkinçiliyin inkişaf etdirilməsində mühüm amil olan suvarma ilə bağlı əsas güc Ağdaş Suvarma Sistemləri İdarəsi ilə Pirəzə Mexaniki Suvarma İdarəsinin üzərinə düşür.

Söhbət zamanı bəlli oldu ki, Ağdaş rayonunun şimal və mərkəzi hissəsində yerləşən 61 yaşayış məntəqəsinin 25 min 521 hektar əkin sahəsini suvarma suyu ilə təmin edən Suvarma Sistemləri İdarəsinin əsas mənbəyi Türyançaydır. Su qıtlığı dövründə suvarma kanalları Yuxarı Şirvan kanalından da qidalanır. Rayonun suvarma suyuna olan tələbatını ödəmək məqsədilə hələ 1956-cı ildə respublikamızda nadir qurğu olan Türyançay su qovşağı tikilib istifadəyə verilib. Bu qovşağın maksimal su ötürmə qabiliyyəti saniyədə 302 kubmetrdir. Sözügedən qurğu vasitəsilə maksimal sərfləri saniyədə 10 və 10,5 kubmetr olan Sağ və Solsahil suvarma kanallları su ilə təmin olunur. Sol sahil suvarma kanalının qovşaqdan götürdüyü su ilə Ucar rayonunun 9 kəndi də suvarma suyu ilə təmin olunur. Qovşağın relyefcə Ağdaş ərazisinin yuxarı hissəsində yerləşməsi rayon SSİ-nin xidmət etdiyi ərazinin əksəriyyətində öz axımı ilə suvarma aparılmasına imkan yaradır.

Rayonda olarkən öyrəndik ki, cari ilin 6 ayı ərzində 1082 hektar pambıq sahəsində arat, müəyyən ərazilərdə təkrar arat, səpin suvarılması aparılmışdır. Hazırda pambıq tarlalarında 2-ci suvarma başa çatmaq üzrədir. 751 hektar sahədə isə 3-cü suvarma işləri aparılır. Bu mövsümdə 8810 hektar taxıl zəmilərində 2 dəfə suvarma aparılmışdır. 7763 hektar yem bitkilərində isə 2-ci suvarma başa çatdırılmışdır. 384 hektar bostan-tərəvəz sahələrində 4 üz suvarma aparılmışdır. 210 hektar biyan əkinində 2-ci suvarma yekunlaşmışdır. 1709 hektar çoxillik bitkilərin 3-cü suvarma suyu başa çatmaq üzrədir. 3642 hektar həyətyanı sahələr və 2300 hektar çəltik sahələri də fasiləsiz su ilə təmin edilir.

**Ağdaş SSİ-nin rəisi Rəsul Zamanov söhbət zamanı onu da qeyd etdi ki,** cari ilin 6 ayı ərzində suvarma kanallarının 293 kilometrlik hissəsində lildən təmizləmə işləri aparılmış, mexanizmlər vasitəsilə 457 min kubmetr lildən təmizlənmə işləri görülmüş və əksər suvarma kanalları lildən təmizlənmişdir.

Aşağı Ləki, Hapıtlı, Kotanarx arxları və çayqırağı arx, Qəsil suvarma kanalı, Çiyni və Tofiqi arxları, Yuxarı Nemətabad beton arxı, Qəribli-Nemətəbad, Gürcüva, Mürsəl ferma arxları, Yenicə beton arxı, Qaradağlı kənd arxı, Cardan beton arxı, Yuxarı Ləki qələmə arxı, Aşağı Ləki, Ayranlı arxları, Pirkəkə beton arxı, Təkəlli, Cüvə, Əmirmahmud, Kükəl arxları, Zeynəddin qol arxı, Binələr arxı, Yanarx beton arxı, Yanarx kənd arxı, Ərəbocaq arxı, Şəkilli 2 suvarma kanalı, Şəkili 1 suvarma kanalı, Qarağan Şıxlar, Qarağan sədi arxları, Aral-1 beton arxı, Aral-1 suvarma kanalı, Şıxlı ferma, Mürsəl dəyirman arxları, Mürsəl beton arxı, Xosrov və Qumlax beton arxları, Cücük, Şıxlı, Nehrəxəlil, Rus arxları, Hüşün suvarma kanalı, Bəylik, Ərəb, Xəlil,



Qoşaqovaq kənd arxları və sair kanallar lildən təmizlənmişdir.

Daşqın və selə qarşı mübarizə tədbirləri çərivəsində Türyançay çayında mexanizmlər vasitəsi ilə 157 min kubmetr çay məcrasının təmizlənməsi aparılmış, Gürcüva kəndi və Qəsil kəndi ərazisində sahilin yuyulmasının qarşısını almaq üçün 600 metr ərazidə də çay məcrasının təmizlənməsi işləri həyata keçirilmişdir.

Müsahibim daha sonra dedi ki, hesabat dövründə Yenicə elektrik nasos stansiyasının elektrik mühərrikinin, Nehrəxəlil kəndində və Qəribli kəndində metal akveduklar, R-5 kanalında və Sağsahil kanalında suburaxıcılar, Kotanarx çayqırağı arxda borulu keçid, Dəhnə kəndində dəmir-beton akveduk cari təmir olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son illər kənd təsərrüfatına göstərdiyi diqqət və qayğı sayəsində ölkədə kənd təsərrüfatı canlanmağa başlayıb. Ölkəmizdə aqrar sektorun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Azərbaycan üçün qeyri-neft sektorunun inkişafı baxımından kənd təsərrüfatı sahələrinin inkişafı xüsusi önəm daşıyır. Bu məqsədlə yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi əsas istiqamət kimi müəyyən edilmişdir.

Ağdaş SSİ-nin rəisi bununla əlaqədar su təsərrüfatının üzərinə düşən vəzifələrdən söz açaraq bildirdi ki, respublikamızda meliorasiya və su təsərrüfatı sahəsinə son illərdə əsaslı kapital qoyuluşu dəfələrlə artmış, bu sahənin maddi texniki bazası xeyli gücləndirilmiş, minlərlə kilometr suvarma kanallarının və kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi həyata keçirilmişdir. Hazırda Ağdaş rayonunda da bu istiqamətdə mühüm işlər görülməkdədir. Əkinəyararlı suvarılmayan torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması məqsədi ilə dövlət başçısının müvafiq sərəncamına əsasən rayonda əkinəyararlı suvarılmayan 15800 hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi məqsədilə işlərə start verilmişdir.

Belə ki, su mənbəyi Yuxarı Şirvan kanalından olan 4,3 min hektar ərazini suvarma suyu ilə təmin etmək məqsədilə 15 kilometr uzunluqda 1400 millimetr ölçülü, su mənbəyi Kür çayından olan 7 min hektar ərazini suvarma suyu ilə təmin etmək məqsədilə 8 kilometr 1200 millimetr ölçülü, su mənbəyi Türyançay çayından olan 4,5 min hektar ərazini suvarma suyu ilə təmin etmək üçün 200 metr 1400 millimetr ölçülü borular vasitəsi ilə su xətlərinin çəkilməsi nəzərdə tutulmuşdur. 4,3 min hektar sahəyə gedən kanalda 7,5 kilometr boru düzülmüş, 6,65 kilometr ərazi qazılmışdır. 7 min hektar ərazidə sahəyə gedən kanalda 3,6 kilometr qazıntı işləri aparılmış, betontökmə və izolyasiya işləri davam etdirilir, 3 layihənin isə sənədləşmə işləri aparılır.

Ağdaş rayonunun əkinçilik sahələrinin suvarma suyu ilə təminatında Pirəzə Mexaniki Suvarma İdarəsinin (Pirəzə MSİ) də öz payı var. Bu idarə Ağdaş rayonunun Pirəzə kəndində Kür çayının sol sahilində yerləşir. Kür və Türyançay çaylarında quraşdırılmış nasos stansiyaları vasitəsilə Ağdaş və Yevlax rayonunun 11 kəndini və meşə əkinlərinin mexaniki üsulla suvarılmasını təmin edir.

**Pirəzə MSİ-nin rəisi İlham Əliyevlə söhbətimiz zamanı məlum oldu ki,** ümumiyyətlə, idarə 9650 hektar sahənin suvarılmasına xidmət edir. 2017-ci ilin ikinci rübündə Kür və Türyançay çaylarında mənbədən 71,5 min kubmetr su verilməsi planlaşdırılmış və nəzərdə tutulan qədər ərazi suvarma suyu ilə təmin edilmişdir.

Xidmət ərazilərində 1641 hektar pambıq, 2020 hektar taxıl 79 hektar çəltik, 2066 hektar köhnə yonca, 555 hektar təzə yonca, 627 hektar həyətyanı sahə, 420 hektar bostan tərəvəz, 457 hektar örüş- biçənək, 1785 hektar təbii meşə ərazilərində mexaniki üsulla və Türyançay kanalından öz axımı ilə suvarma aparılmışdır.

Türyançayda suyun yay vaxtlarında azlığını nəzərə alaraq mexaniki üsula üstünlük verilmişdir. Cari ilin əvvəlindən



öz axımı ilə 1 milyon 494 min kubmetr su verilmişdir ki, bu da 970 hektar əkin sahəsinin suvarılmasına kömək etmişdir. Hazırda suvarma işləri davam edir. Belə ki, bu günə kimi 1641 hektar pambıq sahəsinin arat və birinci suyu tamamilə verilmişdir. Hazırda ikinci suvarma dövrü gedir. Yaxın günlərdə ikinci suvarma dövrü də başa çatacaqdır.

Rəis qeyd etdi ki, Pirəzə MSİ-nin nəzarətçiləri tərəfindən sahələrdə həyata keçirilən suvarma işlərinə mütəmadi nəzarət edilir. Suvarma suyunun təminatında yaranan hər hansı problem barədə idarədə yaradılmış növbətçilərə məlumat verilir və həmin problem tezliklə həll olunur. Pambıq və çəltik ölkəmiz üçün strateji əhəmiyyət kəsb etdiyi üçün hər iki bitkinin əkin sahələrinin suvarma suyu ilə təchizatına xüsusi nəzarət olunur.

Yeri gəlmişkən, əkin sahələrinin keyfiyyətli və səmərəli suvarılması üçün 16 elektrik nasos stansiyası, 25 müxtəlif tipli dizel nasos stansiyaları fasiləsiz olaraq işləyirlər. Pirəzə MSİ bu işləri vaxtında çatdırmaq üçün bütün gücü ilə ilə səfərbər olunaraq gücləndirilmiş iş rejimində işləyir.

***Ziyəddin SULTANOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***